Böyük Vətən müharibəsi illərində işğalçı alman faşistlərinə qarşı mətanətlə sinə gərib, axıracan döyüşən və düşmənə təslim olmayan şəhərlərə (məsələn, Stalinqrad (sonralar Leninqrad), indisə qədim adı ilə adlanan Peterburq) Qəhrəman şəhər adı verilirdi. Təəssüf ki, elə o vaxtlar da bizim ölkəmizə SSRİ rəhbərliyi ikili standartlar çərçivəsindən yanaşdığından, doğma Bakımıza Qəhrəman şəhər adı verilmədi. Halbuki Bakının strateji əhəmiyyətli şəhər kimi işğal edilməsi faşist Almaniyasının hədəfində idi. Böyük Vətən müharibəsindəki Qələbənin təmin edilməsində müstəsna rolu da nəzərə alınmadı doğma Bakımızın.

tipli ifadələri dəfələrlə ayrı-ayrı Tərtər sakinlərinin dilindən eşitmişdim. Bir məsəlimiz var: "Yalançını mənzilinəcən qovarlar". Tərtər camaatından eşitdiyim yuxarıdakı əzmkar ruhun təcəssümünü bir daha canlı şəkildə görməkdəyik. Tərtər şəhəri və ətraf kəndlər demək olar ki, hər gün məkrli və qəddar düşmənlərimiz olan Ermənistan ordusu tərəfindən bombardman edilir, lakin əhali öz iradəsindən dönmür. Təlafat və dağıntılara, ölüm-itimlərə məruz qalan Tərtər əhalisi yenə öz yerində-yuvasında, evində-eşiyində qorxmazcasına duruş gətirib dayanır. Coğrafi baxımdan ön cəbhədə yerləşən, dinc-mülki əhali baxımından arxa cəbhə

# ÖN CƏBHƏMİZ KİMİ ARXA CƏBHƏMİZ DƏ GÜCLÜDÜR

Bu gün doğma Qarabağımızın mənfur erməni-hay tapdağından azad edilməsi uğrunda qanlı və şanlı döyüşlər gedir. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında Ordumuz düşmənə sarsıdıcı, məğlubedici zərbələr vurub, ard-arda işğal altında olan ərazilərimizi düşmənlərimizdən azad edirik. Ön cəbhədə fədakarlıqla döyüşən əsgərlərimizə arxa-dayaq durmaq üçün arxa cəbhənin danılmaz rolu vardır. "Axa cəbhə ol, arxadakı cəbhə olma!" şüarı da məhz belə bir mühüm məqama işarədir. Belə ki, əgər əsgər öz arxasında ikinci bir cəbhənin - xəyanətkar və satqın bir cəbhənin açıldığını görsə, o zaman orduda böyük ruh düşkünlüyü yaranar və qələbə əzmi sarsıla bilər. Buna görə də "arxadakı cəbhə" istilahı arxadan vurulan namərd zərbəsi anlamını ifadə edirsə, "arxa cəbhə" ifadəsi isə ön cəbhədəki döyüşən orduya arxa-kömək duran təminatçı cəbhə mənasını verir.

Bu mənada qələbə əzmi ilə düşmən üzərinə yeriyən ordumuzun arxasında dayanan mülki əhalimiz sözün həqiqi mənasında öz əsgərinin arxa cəbhəsidir, arxası, dayağıdır. Vətəndaşlarımızda ordumuza güvənc hissi eyni zamanda əsgərlərimizdə böyük ruh yüksəkliyi, coşqu hissi yaradır. Həmçinin əsgərlərimiz də onlara kömək duran mülki əhaliyə bel bağlayır, vətəndaşlardan mənəvi və maddi cəhətdən kömək və güc alırlar.

Sözün əsl mənasında arxa cəbhədə də döyüşkənlik əhval-ruhiyyəsi olduqda bu, Qələbə üçün mühüm stimul verir. Baxmayaraq ki, adı "arxa cəbhə" olsa da, əslində elə ön xətlə demək olar ki, yanaşı mövqedə dayanan Tərtər şəhərinin sakinlərinin mətinlik və yenilməzlik ruhu dediyimizə bariz örnəkdir. İstər Birinci Qarabağ savaşında, istərsə də indiki həlledici Qarabağ uğrunda gedən qanlı döyüşlər tərtərlilərin mübarizlik əhval-ruhiyyəsini qıra bilməmişdir. Mən son bir neçə ildə bir neçə dəfə Tərtər şəhərində olmuşam. Oranın ayrı-ayrı sakinləri ilə görüşərkən söhbət əsnasında onların hər zaman düşmənə qarşı qorxmazcasına müqavimət göstərdiklərini müşahidə etmişdim. "Biz heç vaxt erməniyə torpaq güzəşt etməmişik və düşmən qarşısında heç vədə geri çəkilməyəcəyik"

hesab olunan Tərtər əsl qəhrəmanlıq nümunəsi göstərir, yeri-yurdunu, doğma ev-eşiyini tərk etmir. Həm ön cəbhə, həm də arxa cəbhənin qovuşduğu məkan kimi Tərtər şəhəri əsl döyüşkənlik, əzmkarlıq bölgəsidir. Düşmən qarşısından bir addım da olsun qorxub, geri çəkilməyən Tərtəri qəhrəmanlar yurdu, Tərtər şəhərini isə Qəhrəman şəhər hesab etmək olar. Əgər "Qəhrəman şəhər" statusu vermək məsələsi ortaya çıxsa, onda Tərtər ilk növbədə belə bir ad almağa layiqdir.

Nankor qonşularımız və məkrli düşmənlərimiz olan ermənilərin Tərtərə amansız şəkildə atəşlər yağdırmasının müqabilində mülki əhali mətinliklə duruş gətirib, bu mənbus kabusa meydan oxuyur.

Ölkəmizin ikinci şəhəri sayılan Gəncə şəhəri "Qəhrəman şəhər" statusu almağa çox layiqdir. Ta qədimdən Gəncəbasar elləri özlərinin döyüşkən və mübarizlik ruhu ilə seçilib tanınıblar. Çar Rusiyası zamanı da Cavad xanın timsalında tarix özü Gəncənin qəhrəmanlığının şahidi olub. Bu gün dılqır Ermənistanın Gəncəyə atdığı top və raket zərbələri Qəhrəman Gəncənin ruhunu sarsıda bilməz. Tarixdə çoxlu qan-qadaların şahidi olmuş Gəncəlilərin əzmkarlıq ruhunu sarsıtmaq qeyri-mümkündür.

Əslində Tərtərin də, Gəncənin də bu günlər ağır, dağıdıcı zərbələrə məruz qalmasının cavabında göstərilən iradə və sarsılmaz qürurumuz bir daha Ermənistanın özünü mənən sındırmaq deməkdir. Əlləri yerdən-göydən üzülən, havadarlarından yetərincə dəstək ala bilməyən işğalçı və simasız Ermənistan hakimiyyəti və onun barbar ordusu quduz itə dönüb istədiyi tərəfi atəşə tutmaqla Azərbaycan xalqının iradəsini və azadlıq ruhunu sarsıda bilməyəcəkdir. Çünki ön cəbhədə qalibiyyətlə irəliləyən Azərbaycan Ordusunun Qəhrəman Tərtər, Qəhrəman Gəncə şəhərləri və mülki əhalisini təşkil edən iradəli və sarsılmaz arxa cəbhəsi var. Azərbaycanımızın ön cəbhəsi də, arxa cəbhəsi də vahid bir komandanın rəhbərliyi altında sıx birləşib!..

***Şakir ALBALIYEV,***
***AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru, dosent.***